# AZƏRBAYCAN RESPUBLİKASININ 2005-Cİ İL DÖVLƏT BÜDCƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Maddə 1.

Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsinin gəlirləri 10222000,0 milyon manat, xərcləri 11016000,0 milyon manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 9302190,0 milyon manat, yerli gəlirləri 919810,0 milyon manat və mərkəzləşdirilmiş xərcləri 8422254,0 milyon manat, yerli xərcləri 2593746,0 milyon manat) məbləğində təsdiq edilsin.

## Maddə 2.

Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulur:

*(milyon manat)*

| Gəlirlərin mənbələri | Dövlət büdcəsinin gəlirləri |
|---|---|
| Fiziki şəxslərin gəlir vergisi | 1 406 000 |
| Hüquqi şəxslərin mənfəət vergisi (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa) | 1 745 000 |
| Əlavə dəyər vergisi | 2 904 000 |
| o cümlədən: | |
| - Azərbaycan Respublikasının ərazisinə gətirilən mallara əlavə dəyər vergisi | 1 174 000 |
| Aksizlər | 675 000 |

| | |
|---|---|
| o cümlədən: | |
| - Azərbaycan Respublikasının ərazisinə gətirilən mallara aksizlər | 70 000 |
| Hüquqi şəxslərin əmlak vergisi | 200 000 |
| Hüquqi şəxslərin torpaq vergisi | 75 000 |
| Yol vergisi | 51 000 |
| o cümlədən: | |
| xarici avtonəqliyyat vasitələri sahiblərindən alınan yol vergisi | 6000 |
| Mədən vergisi (yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi istisna olmaqla) | 490 000 |
| Sadələşdirilmiş vergi | 106 000 |
| Gömrük rüsumları | 370 000 |
| Dövlət rüsumu | 150 000 |
| Vergi olmayan sair gəlirlər | 550 000 |
| Dövlət əmlakının və torpaqların icarəyə verilməsindən daxilolmalar | 12 000 |
| Avropa Birliyinin Azərbaycan Respublikasına verdiyi qrant | 50 000 |
| Xarici dövlətlərin hökumətlərinə verilmiş kreditlər üzrə daxilolmalar | 17 387 |
| Səhmlərində dövlətin payı olan banklardan və digər kredit təşkilatlarından alınan dividendlər | 26 580 |
| Azərbaycan Respublikasının dövlət zəmanəti ilə Beynəlxalq Bankdan alınmış kreditlər üzrə daxilolmalar | 3 958 |
| Qeyri-maliyyə dövlət müəssisələrindən alınan dividendlər | 55 000 |
| Milli Bankın mənfəətindən daxilolmalar | 30 000 |
| Dövlət Neft Fondundan daxilolmalar | 750 000 |
| Büdcədən verilmiş kreditlər üzrə daxilolmalar | 969 |
| Təkrar borc sazişləri üzrə daxilolmalar | 52 106 |
| Aksiz markalarının satışından daxilolmalar | 6 000 |
| Dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmaları | 366 000 |

**Maddə 3.**

Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsinə vergi daxilolmaları Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş vergi dərəcələrinə uyğun olaraq hesablanır.

Azərbaycan Respublikasında istehsal edilən və qiymətləri tənzimlənən məhsulların ixracı zamanı məhsulların kontrakt (satış) qiyməti ilə (ixrac xərcləri çıxılmaqla) respublikadaxili müəssisə topdansatış qiyməti arasındakı fərqdən dövlət büdcəsinə 25 faiz həcmində ödəniş müəyyən edilir.

## Maddə 4.

Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsinin mərkəzləşdirilmiş gəlirləri aşağıdakı mənbələrdən göstərilən normativlər üzrə ayırmalar hesabına formalaşır:

| | |
|---|---|
| Bakı şəhəri üzrə gəlirlər | *91,30* faiz |
| Aşağıdakı mənbələr üzrə daxilolmalardan | 100,0 faiz |
| Azərbaycan Respublikasının ərazisinə gətirilən mallara əlavə dəyər vergisi (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa) | |
| Azərbaycan Respublikasının ərazisinə gətirilən mallara aksizlər (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa) | |
| Gömrük rüsumları (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa) | |
| Xarici avtonəqliyyat vasitələri sahiblərindən alınan yol vergisi (Naxçıvan Muxtar Respublikasının gömrük orqanları tərəfindən toplanılanlardan başqa) | |
| Dövlət əmlakının və torpaqların icarəyə verilməsindən daxilolmalar | |
| Xaricdən alınan cari və əsaslı ödənişlər Xarici dövlətlərin hökumətlərinə verilmiş kreditlər üzrə daxilolmalar | |
| Səhmlərində dövlətin payı olan banklardan və digər kredit təşkilatlarından alınan dividendlər Azərbaycan Respublikasının dövlət zəmanəti ilə Beynəlxalq Bankdan alınmış kreditlər üzrə daxilolmalar | |
| Qeyri-maliyyə dövlət müəssisələrindən alınan dividendlər | |
| Milli Bankın mənfəətindən daxilolmalar | |
| Dövlət Neft Fondundan daxilolmalar | |
| Aksiz markalarının satışından daxilolmalar | |
| Büdcədən verilmiş kreditlər üzrə daxilolmalar | |
| Təkrar borc sazişləri üzrə daxilolmalar | |
| Dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmaları | |

**Maddə 5.**

Naxçıvan Muxtar Respublikasının, digər şəhər və rayonların yerli gəlirlərinə aşağıdakılar verilir:

- Mərkəzləşdirilmiş gəlirlərə aid edilənlərdən və yerli xərclərdən maliyyələşən təşkilatların büdcədənkənar daxilolmalarından başqa Bakı şəhəri üzrə gəlirlərin *8,70* faizi, Naxçıvan Muxtar Respublikası, digər şəhər və rayonlar üzrə gəlirlərin 100 faizi.

**Maddə 6.**

Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsinin xərcləri funksional təsnifatın bölmə və köməkçi bölmələri səviyyəsində aşağıdakı məqsədlərə yönəldilir.

| ***Göstəricilər*** | ***Məbləğ (min manat)*** |
|---|---|
| *1. Ümumi dövlət xidmətləri xərcləri* | *902 242 208* |
| ***o cümlədən:*** | |
| *- qanunvericilik və icra hakimiyyəti, yerli özünüidarəetmə orqanlarının saxlanılması xərcləri* | *658 187 121* |
| *- beynəlxalq təşkilatlara üzvlük haqqı xərcləri* | *37 929 211* |
| *- elm xərcləri* | *153 247 390* |
| *- başqa kateqoriyalara aid edilməyən ümumi dövlət xidməti xərcləri* | *52 878 486* |
| *2. Müdafiə xərcləri* | *1 484 355 580* |
| *3. Məhkəmə hakimiyyəti, hüquq-mühafizə, təhlükəsizlik orqanlarının və prokurorluğun saxlanılması xərcləri* | *1 084 079 047* |
| ***o cümlədən:*** | |
| *- Azərbaycan Respublikası məhkəmə hakimiyyəti orqanlarının saxlanılması xərcləri* | *61 522 093* |
| *- Azərbaycan Respublikası prokurorluq orqanlarının saxlanılması xərcləri* | *69 510 564* |
| *- Azərbaycan Respublikası hüquq-mühafizə, təhlükəsizlik orqanlarının saxlanılması xərcləri* | *943 684 122* |
| *- məhkəmə hakimiyyəti, hüquq-mühafizə, təhlükəsizliyin təmin edilməsi üzrə digər kateqoriyalara aid edilməyən fəaliyyətlə bağlı xərclər* | *9 362 268* |
| *4. Təhsil xərcləri* | *1 893 086 041* |
| *5. Səhiyyə xərcləri* | *604 427 457* |
| *6. Sosial müdafiə və sosial təminat xərcləri* | *1 539 128 067* |

| | |
|---|---|
| ***o cümlədən:*** | |
| *- sosial müdafiə xərcləri* | *1 098 000 000* |
| *- sosial təminat xərcləri* | *441 128 067* |
| *7. Mədəniyyət, incəsənət, kütləvi informasiya, bədən tərbiyəsi və din sahəsində fəaliyyətin xərcləri* | *264 821 998* |
| ***o cümlədən:*** | |
| *- mədəniyyət və incəsənət sahəsində xərclər* | *238 472 353* |
| *- bədən tərbiyəsi və gənclər siyasəti tədbirlərinin xərcləri* | *26 349 645* |
| *8. Mənzil-kommunal təsərrüfatı xərcləri* | *176 546 792* |
| *9. Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq xərcləri* | *495 105 086* |
| ***o cümlədən:*** | |
| *- kənd təsərrüfatı xərcləri* | *354 206 431* |
| *- meşə təsərrüfatı xərcləri* | *19 649 144* |
| *- balıqçılıq sahəsinin xərcləri* | *1 859 448* |
| *- digər kateqoriyalara aid edilməyən fəaliyyət və xidmətlərin xərcləri* | *119 390 063* |
| *10. Sənaye və tikinti xərcləri* | *835 924 303* |
| ***o cümlədən:*** | |
| *- tikinti xərcləri* | *820 849 343* |
| ***ondan:*** | |
| *- dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri)* | *820 000 000* |
| ***o cümlədən:*** | |
| *- istehsal və infrastruktur yönümlü layihələr* | *488 419 000* |
| *- sosial yönümlü layihələr* | *251 877 000* |
| *- institusional yönümlü layihələr* | *15 957 000* |
| *- ərazilərin bərpası, yenidənqurulması və fövqəladə halların aradan qaldırılması üzrə layihələr* | *38 747 000* |
| *- Naxçıvan Muxtar Respublikası üzrə əsaslı tikinti layihələri* | *25 000 000* |
| *11. Nəqliyyat və rabitə xərcləri* | *487 528 600* |
| *12. İqtisadi fəaliyyətlə bağlı digər xərclər* | *252 810 820* |
| ***o cümlədən:*** | |
| *- təchizat, ticarət, ictimai iaşə üzrə xərclər* | *287 420* |
| *- turizm xərcləri* | *3 500 000* |
| *- çoxsahəli inkişaf layihələri üzrə xərclər* | *249 023 400* |
| *13. Əsas bölmələrə aid edilməyən xərclər* | *834 988 148* |
| ***o cümlədən:*** | |

| | |
|---|---|
| *- əsas bölmələrə aid edilməyən sair xərclər* | *724 988 148* |
| ***ondan:*** | |
| *-01 iyun 2005-ci il tarixədək ixrac olunan neftin satış qiyməti ilə büdcə hesablamaları üçün nəzərdə tutulan qiymət arasında fərq hesabına dövlət büdcəsinə daxil olmuş və xəzinədarlığın xüsusi hesabında toplanmış vəsaitin Dövlət Neft Fonduna köçürülməsi* | *325 000 000* |
| *- dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar xərcləri* | *366 000 000* |
| *- ehtiyat fondunun xərcləri* | *100 000 000* |
| *- yerli büdcələrə verilən dotasiya* | *10 000 000* |
| *14. Dövlət borcuna və öhdəliklərinə xidmət edilməsi ilə bağlı xərclər* | *160 955 853* |

**Maddə 7.**

Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsinin xərcləri funksional və iqtisadi təsnifatın paraqrafları səviyyəsində bu Qanunun əlavəsində verilmiş məbləğlərdə təsdiq edilsin.

**Maddə 8.**

Naxçıvan Muxtar Respublikasının büdcəsinin gəlirləri 60300,0 milyon manat, xərcləri *351650,3* milyon manat olmaqla, gəlir və xərclərini tənzimləmək üçün dövlət büdcəsindən ayrılan dotasiya *291350,3* milyon manat məbləğində təsdiq edilsin.

Naxçıvan Muxtar Respublikasının büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar gəlirləri 5276,4 milyon manat, xərcləri 5276,4 milyon manat müəyyən edilsin.

**Maddə 9.**

Azərbaycan Respublikasının digər şəhər və rayonlarının yerli gəlirləri *839830,2* milyon manat, yerli xərcləri *2222415,9* milyon manat olmaqla, yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdirilmiş xərclərdən ayrılan vəsait *1382585,7* milyon manat təsdiq edilsin.

Həmin şəhər və rayonların yerli xərclərindən maliyyələşən təşkilatların büdcədənkənar gəlirləri 14403,4 milyon manat, xərcləri 14403,4 milyon manat təsdiq edilsin.

*(min manat)*

| № | Şəhər və rayonların adı | Gəlirlər | Xərclər | Yerli gəlir və xərcləri tənzimləmək üçün mərkəzləşdiril-miş xərclərdən ayrılan vəsait |
|---|---|---|---|---|
| | Şəhərlər: | | | |
| 1. | Bakı | 592 121 217 | 592 121 217 | |
| 2. | Əli Bayramlı | 5 482 000 | 20573 967 | 15 091 967 |
| 3. | Yevlax | 5 229 000 | 29 552 797 | 24 323 797 |
| 4. | Gəncə | 31 300 000 | 83 627 146 | 52 327 146 |
| 5. | Lənkəran | 9 862 000 | 42 332 489 | 32 470 489 |
| 6. | Mingəçevir | 6 810 000 | 34 934 309 | 28 124 309 |
| 7. | Naftalan | 586 000 | 4 196 142 | 3 610 142 |
| 8. | Sumqayıt | 25 356 000 | 88 871 482 | 63 515 482 |
| 9. | Xankəndi | | | |
| 10. | Şəki | 7 581 000 | 46 604 190 | 39 023 190 |
| | Rayonlar: | | | |
| 11. | Abşeron | 10 531 000 | 23 726 034 | 13 195 034 |
| 12. | Ağdam | 1 320 000 | 46 256 874 | 44 936 874 |
| 13. | Ağdaş | 2 556 000 | 21 280 855 | 18 724 855 |
| 14. | Ağstafa | 2 601 000 | 19 871 996 | 17 270 996 |
| 15. | Ağsu | 1 833 000 | 17 288 516 | 15 455 516 |
| 16. | Ağcabədi | 4 082 000 | 29 964 264 | 25 882 264 |
| 17. | Astara | 2 675 000 | 21 083 836 | 18 408 836 |
| 18. | Balakən | 2 492 000 | 19 912 162 | 17 420 162 |
| 19. | Beyləqan | 3 400 000 | 21 595 645 | 18 195 645 |
| 20. | Bərdə | 5 591 000 | 34 521 312 | 28 930 312 |
| 21. | Biləsuvar | 2 573 000 | 19 647 406 | 17 074 406 |
| 22. | Qazax | 3 073 000 | 24 020 005 | 20 947 005 |
| 23. | Qax | 2 462 000 | 17 505 130 | 15 043 130 |
| 24. | Qəbələ | 3 218 000 | 22 797 531 | 19 579 531 |
| 25. | Qobustan | 1 260 000 | 10 754 413 | 9 494 413 |
| 26. | Quba | 7 123 000 | 33 299 803 | 26 176 803 |
| 27. | Qubadlı | 568 000 | 14 315 589 | 13 747 589 |
| 28. | Qusar | 2 862 000 | 24 528 892 | 21 666 892 |

| | | | | |
|---|---|---|---|---|
| 29. | Daşkəsən | 1 305 000 | 15 926 633 | 14 621 633 |
| 30. | Dəvəçi | 2 097 000 | 13 316 419 | 11 219 419 |
| 31. | Zaqatala | 5 303 000 | 30 075 793 | 24 772 793 |
| 32. | Zəngilan | 261 000 | 10 435 127 | 10 174 127 |
| 33. | Zərdab | 1 626 000 | 14 559 546 | 12 933 546 |
| 34. | İmişli | 3 871 000 | 24 086 053 | 20 215 053 |
| 35. | İsmayıllı | 2 681 000 | 22 189 883 | 19 508 883 |
| 36. | Yardımlı | 1 000 000 | 16 745 882 | 15 745 882 |
| 37. | Kəlbəcər | 378 000 | 27 341 487 | 26 963 487 |
| 38. | Kürdəmir | 3 296 000 | 21 517 426 | 18 221 426 |
| 39. | Gədəbəy | 2 040 000 | 31 430 473 | 29 390 473 |
| 40. | Goranboy | 3 450 000 | 30 018 851 | 26 568 851 |
| 41. | Göyçay | 3 710 000 | 27 326 491 | 23 616 491 |
| 42. | Laçın | 464 000 | 29 510 214 | 29 046 214 |
| 43. | Lerik | 1 517 000 | 20 835 722 | 19 318 722 |
| 44. | Masallı | 5 607 000 | 35 211 405 | 29 604 405 |
| 45. | Neftçala | 3 452 000 | 20 342 936 | 16 890 936 |
| 46. | Oğuz | 1 319 000 | 13 198 385 | 11 879 385 |
| 47. | Saatlı | 3 427 000 | 22 647 465 | 19 220 465 |
| 48. | Sabirabad | 5 005 000 | 32 542 451 | 27 537 451 |
| 49. | Salyan | 4 765 000 | 29 184 300 | 24 419 300 |
| 50. | Samux | 1 952 000 | 14 551 698 | 12 599 698 |
| 51. | Siyəzən | 1 936 000 | 10 190 760 | 8 254 760 |
| 52. | Tərtər | 2 058 000 | 19 020 147 | 16 962 147 |
| 53. | Tovuz | 3 881 000 | 42 446 231 | 38 565 231 |
| 54. | Ucar | 2 280 000 | 19 304 432 | 17 024 432 |
| 55. | Füzuli | 1 303 000 | 36 539 861 | 35 236 861 |
| 56. | Xanlar | 3 104 000 | 17 473 522 | 14 369 522 |
| 57. | Xaçmaz | 6 102 000 | 35 787 439 | 29 685 439 |
| 58. | Xocavənd | 204 000 | 6 194 560 | 5 990 560 |
| 59. | Xocalı | 93 000 | 4 521 796 | 4 428 796 |
| 60. | Xızı | 672 000 | 8 026 346 | 7 354 346 |
| 61. | Hacıqabul | 2 500 000 | 14 549 351 | 12 049 351 |
| 62. | Cəbrayıl | 284 000 | 18 819 466 | 18 535 466 |
| 63. | Cəlilabad | 3 942 000 | 43 016 412 | 39 074 412 |
| 64. | Şamaxı | 3 127 000 | 24 974 683 | 21 847 683 |

| | | | | |
|---|---|---|---|---|
| 65. | Şəmkir | 4 780 000 | 43 435 552 | 38 655 552 |
| 66. | Şuşa | 491 000 | 9 936 708 | 9 445 708 |
| | Cəmi: | 839 830 217 | 2 222 415 908 | 1 382 585 691 |

**Maddə 10.**

Yerli büdcələrə veriləcək dotasiyanın məbləği 10000,0 milyon manat təsdiq edilsin.

**Maddə 11.**

Dövlət büdcəsindən veriləcək büdcə ssudasının həcmi 30000,0 milyon manat təsdiq edilsin.

**Maddə 12.**

Azərbaycan Respublikasının 2005-ci ildə dövlət daxili və xarici borclarının faizləri və əsas məbləğləri üzrə ödənişlər aşağıdakı kimi təsdiq edilsin.

*mln. manat*

| | |
|---|---|
| Daxili dövlət borcu üzrə ödənişlər | *37 400* |
| o cümlədən: | |
| faizlər üzrə ödənişlər | *25 388* |
| əsas borc üzrə ödənişlər | 12 012 |
| Xarici dövlət borcu üzrə ödənişlər | *93 556* |
| o cümlədən: | |
| faizlər üzrə ödənişlər | 49 050 |
| əsas borc üzrə ödənişlər | *44 506* |

**Maddə 13.**

Nəzərdə tutulmayan xərclər üçün yaradılmış ehtiyat fondunun məbləği *100000,0* milyon manat təsdiq edilsin.

**Maddə 14.**

2005-ci ildə investisiya layihələri üçün dövlət zəmanəti ilə alınan xarici kreditlər üzrə nəzərdə tutulan xərclərin həcmi 632231,7 milyon manat təsdiq edilsin.

**Maddə 15.**

Azərbaycan Respublikasının 2005-ci ildə daxili dövlət borclanma limitinin yuxarı həddi 100000,0 milyon manat, xarici dövlət borclanma limitinin yuxarı həddi *5910000,0* milyon manat təsdiq edilsin.

**Maddə 16.**

Büdcə daxilolmalarının vəziyyətindən asılı olmayaraq əmək haqqı, əmək haqqına üstəlik, pensiya, başqa sosial müavinətlər və ödənişlər, dövlətin daxili və xarici borclarına xidmətlə bağlı xərclər, dərman və ərzaq alınması xərc maddələri müdafiə olunmuş xərc maddələridir.

**Maddə 17.**

Əmək haqqı, əmək haqqına üstəlik, pensiya, başqa sosial müavinətlər və ödənişlər, dövlətin daxili və xarici borclarına xidmətlə bağlı xərclər, dərman və ərzaq alınması xərc maddələri, ilk növbədə, sonra isə gəlirlərin daxil olmasından asılı olaraq və kəsirin müəyyən olunmuş həddi nəzərə alınmaqla digər xərc maddələri üzrə nəzərdə tutulmuş vəsaitlər maliyyələşdirilir.

**Maddə 18.**

Dövlət büdcəsi kəsirinin yuxarı həddi *794000,0* milyon manat məbləğində təsdiq edilsin və maliyyələşdirilməsi aşağıdakı mənbələr hesabına təmin edilsin:

*(milyard manatla)*

| | |
|---|---|
| 1. Daxili mənbələr | *695,6* |
| **o cümlədən:** | |
| özəlləşdirmədən daxilolmalar | *190,0* |
| qısamüddətli dövlət istiqraz vərəqələrinin satışından daxilolmalar | *200,0* |
| dövlət daxili uduşlu istiqraz vərəqələrinin satışından daxilolmalar | 5,6 |
| 2005-ci ilin yanvarın 1-nə dövlət büdcəsinin vahid xəzinə hesabında olan sərbəst qalığı | 300,0 |
| 2. Xarici mənbələr | 98,4 |

**Maddə 19.**

Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirləri nəzərə alınmadan Azərbaycan Respublikasının 2005-ci il icmal büdcəsinin kəsiri *1951000,0* milyon manat məbləğdə müəyyən edilsin.

**Maddə 20.**

Azərbaycan Respublikasının 2005-ci il icmal büdcəsinin xərclərinin yuxarı həddinin məbləği *14191529,5* milyon manat müəyyən edilsin.

**Maddə 21.**

Büdcə ili ərzində dövlət büdcəsindən maliyyələşən təşkilatlara nəzərdə tutulmuş məcburi dövlət sosial sığorta haqları üzrə vəsaitlər Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun orqanlarına tam məbləğdə daxil olmadıqda, nəzərdə tutulmuş və faktiki hesablanmış məcburi dövlət sosial sığorta haqları arasındakı fərq qədər mərkəzləşdirilmiş xərclərdən Dövlət Sosial Müdafiə Fonduna yönəldilən transfertin məbləği artırılmaqla köçürülür.

**Maddə 22.**

Enerji sektoru üzrə alınan yanacaq üçün ödənilməyən məbləğə görə dövlət büdcəsi hesabına bu sektora ediləcək dolayı subsidiyanın limiti *1685600,0* milyon manat müəyyən olunmaqla, icmal büdcənin həm gəlir, həm də xərc hissəsinə daxil edilib ayrıca sətirlə əks etdirilir. Dövlət budcəsi hesabına enerji sektoruna dolayı subsidiyanın limitindən asılı olmayaraq, bu sektora dolayı subsidiyanın həcmi 2005-ci il 01 yanvaradək fəaliyyət üzrə dövlət büdcəsinə hesablanmış vergi borclarının ödənilməyən hissəsi qədər əvəzləşdirilir.

**Maddə 23.**

İxrac olunan neftin satış qiyməti büdcə hesablamaları üçün nəzərdə tutulduğundan yüksək olduqda, qiymət fərqi hesabına dövlət büdcəsinə daxil olmuş əlavə vəsait xəzinədarlığın hesabında ayrıca saxlanılır və həmin vəsaitdən qanunvericiliyə uyğun olaraq istifadə olunur.

**Maddə 24.**

Bu Qanun 2005-ci il yanvarın 1-dən qüvvəyə minir.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, 3 dekabr 2004-cü il***
***№ 789-IIQ***